# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**“Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi”nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## 1 İLLİK ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Tarixi mənbələrdə Qərbi Azərbaycan həqiqətləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/10/5-M-10**
Müqavilənin imzalanma tarixi: **17 noyabr 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2023-cü il - 01 iyun 2025-ci il**
*Layihənin 1 il üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə 1 il ərzində yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusu üzrə ilk olaraq müxtəlif mənbə və ədəbiyyatlar toplanmış, onların təhlili aparılmışdır. Qərbi Azərbaycanın tarixi, əhalisi, mədəniyyəti kimi məsələlərə həsr edilmiş tarixşünaslıqda yer tutan əsərlər əldə edilmişdir. Onlardan həm sovet, həm də müstəqillik dövründə yazılan əsərlər mövcuddur ki, müstəqilliyimizin bərpasından sonra yazılmış əsərlər obyektivliyi ilə seçilməkdədir. Sovet dövründə və xarici tarixşünaslıqda yer tutan əsərlərdəki oxşar məsələlər müqayisəli şəkildə təhlil edilmişdir. Tarixşünaslıqda yer alan əsərlərlə yanaşı tarixi həqiqətləri sübuta yetirən mənbələrin topanması və sistemləşdirilməsinə başlanılmışdır. İrəvan əyalətinin icmal dəftəri, İrəvan əyalətinin müfəssəl dəftəri adlanan tarixi sənədlər, Osmanlı dəftərləri, çar dövründə aparılmış inzibati-sosial xarakterli araşdırmaların əks oldundğu Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri də tarixi reallıqları əks etdirən faktları özündə əks etdirir. İvan Şopenin “Исторический памятник состояния армянской-области в эпоху её присоединения к российской империи” adlı 1852-ci ildə yazılmış əsəri də bu ərazilərə ermənilərin sonradan köçürüldüyünü təsdiqləyən mənbələrdən biridir. Bundan başqa, Şavrovun yazdıqları da ermənilərin sonradan köçürüldüyü, azərbycanlıların bu ərazilərin əzəli sahibləri olduğunu sübut edir. Həmçinin, qədim dövrə və orta əsrlərə aid mənbələrdə də mühüm tarixi faktlar mövcuddur. Mixi yazılı mənbələr, antik dövrə aid |

qaynaqlar, orta əsrlərdə səyyagların gündəlikləri də layihə mövzusunun araşdırılması zamanı istifadə ediləcək mənbələrə aiddir. Bu mənbələr müxtəlif vaxtlarda Azərbaycan dilinə tərcümə edilsə də, bəziləri Türkiyə, Rusiya və Avropa, ABŞ-da tərcümə edilərək nəşr edilmişdir. Onların bir hissəsi əldə edilmiş və təhlil edilmişdir. Digər hissəsinin əldə edilməsi ilə bağlı araşdırmalar aparılır.

Tarixi gerçəkliyi özündə əks etdirən mühüm mənbələr maddi-mədəniyyət nümunələridir. Bunlara arxeoloji qazıntılar nəticəsində əldə edilmiş materiallar və onların təhlilindən alınan elmi nəticələr, eyni zamanda müxtəlif dövrlərə aid tarixi abidələr aiddir. Bu maddi nümunələr tarixi xüsusiyyətləri özündə əks etdirir, onların yaradıcısı olan xalqın etnik xüsusiyyətindən xəbər verir. Odur ki, Qərbi Azərbaycanda olan belə abidələrin tarixi mənbə kimi rolu araşdırılaraq təhlil edilmişdir. Qərbi Azərbaycan ərazisində yerləşən maddi-mədəni irsimiz – qayaüstü təsvirlər, daş kitabələr, məscidlər, qalalar, körpülər və s.tarixi abidələrin hər biri tarixi məlumatları özündə əks etdirir. Burada yerləşən tarixi abidələr və bu abidələr haqqında müxtəlif dövrə aid əsərlərdə, sənədlərdə qeyd edilmiş məlumatlar tarixi reallığı özündə əks etdirir. Qərbi Azərbaycan ərazisindən aşkarlanan daş kitabələr, abidələr, maddi-mədəniyyət nümunələri bu ərazilərin Azərbaycan türklərinə məxsus olduğunu göstərir. Həmçinin, tarixi abidələr müxtəlif dövrə aid yazılı qaynaqlarda da təsvir edilmiş, onlar haqqında, əhali haqqında məlumatlar verilmişdir. Bu məlumatlar daş kitabələr üzərindəki təsvirlər və yazılarla üst-üstə düşür. Ermənistan hökuməti və ermənilər Azərbaycan xalqına məxsus maddi-mədəniyyət nümunələrinin mühüm bir hissəsini dağıtmış, bir hissəsinin üzərində dəyişikliklər apararaq saxtalaşdırmağa çalışmışdır. Bununla bağlı, bu ərazidə beynəlxalq qurumlar monitorinqlər aparmalı və mənbələrdə, yazılı sənədlərdə olan abidələrin taleyi ilə bağlı Ermənistan hökuməti hesabat verməlidir. Müqayisə üçün qeyd edək ki, Azərbaycan dövləti və tolerant Azərbaycan xalqı tərəfindən Bakıda yerləşən erməni kilsəsi bu gün də qorunub-saxlanmaqdadır. Müqəddəs Maarifləndirici Qriqori kilsəsi və ya Bakı erməni kilsəsi adlanan bu tarixi-dini abidə Ermənistan hökuməti və ermənilər Azərbaycan xalqına məxsus maddi-mədəniyyət nümunələrinin mühüm bir hissəsini dağıtmış, bir hissəsinin üzərində dəyişikliklər apararaq saxtalaşdırmağa çalışmışdır. Bununla bağlı, bu ərazidə beynəlxalq qurumlar monitorinqlər aparmalı və mənbələrdə, yazılı sənədlərdə olan abidələrin taleyi ilə bağlı Ermənistan hökuməti hesabat verməlidir. Müqayisə üçün qeyd edək ki, Azərbaycan dövləti və tolerant Azərbaycan xalqı tərəfindən Bakıda yerləşən erməni kilsəsi bu gün də qorunub-saxlanmaqdadır. Müqəddəs Maarifləndirici Qriqori kilsəsi və ya Bakı erməni kilsəsi adlanan bu tarixi-dini abidə Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi kimi, "Azərbaycandakı tarixi abidələrin milli qeydiyyatı" siyahısına daxil edilmişdir.

Qərbi Azərbaycan ərazisində 1918-1920-ci illərdə həyata keçirilmiş soyqırım araşdırılmışdır. Bununla bağlı yerli və xarici ədəbiyyatlarda aparılmış araşdırma materialları müqayisəli şəkildə təhlil edilmiş, mövcud arxiv materiallarındakı faktlara diqqət yetirilmişdir. Tarixi mənbələr bir daha sübut edir ki, XX əsrin əvvəllərində ermənilər Azərbaycan ərazisində soyqırım siyasətini məqsədli şəkildə həyata keçirmişdir. 1905-1907-ci illərdə çar Rusiyasında baş vermiş inqilabdan faydalanmağa çalışan ermənilər türk-müsəlman əhaliyə qarşı soyqırım törətmişlər. Tarixdə erməni-müsəlman davası kimi qeyd edilən bu hadisələr zamanı dinc, günahsız əhaliyə qarşı ağlasığmaz cinayətlər törədilmişdir. Tarixi mənbələrdə də

bununla bağlı kifayət qədər məlumatlar var. Məmməd Səid Ordubadinin "Qanlı illər", Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərlərində 1905-1906-cı illərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərlə bağlı mühüm faktlar özəksini tapmışdır. 1905-1907-ci illərdə çar Rusiyasında baş vermiş inqilabdan faydalanmağa çalışan ermənilər türk-müsəlman əhaliyə qarşı soyqırım törətmişlər. Tarixdə erməni-müsəlman davası kimi qeyd edilən bu hadisələr zamanı dinc, günahsız əhaliyə qarşı ağlasığmaz cinayətlər törədilmişdir. Tarixi mənbələrdə də bununla bağlı kifayət qədər məlumatlar var. Məmməd Səid Ordubadinin "Qanlı illər", Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərlərində 1905-1906-cı illərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərlə bağlı mühüm faktlar özəksini tapmışdır. Bakıda rus dilində çap olunmuş "Kaspi" qəzetinin 1905-1906-cı illərin nömrələrində, həmçinin, 1907-ci ildə erməni dilində çap olunmuş A. Donun "Qafqazda erməni türk toqquşmaları (1905- 1906-cı illər)" kitabında həmin dövrdə baş verən hadisələrlə bağlı məlumatlara rast gəlmək mümkündür. 1918-1920-ci illərdə ermənilərin soyqırımına məruz qalan Azərbaycan ərazilərindən Zəngəzur qəzası, İrəvan olmuşdur. Andranikin, Nijdenin rəhbərlik etdiyi erməni dəstələri Azərbaycan ərazilərinə hücum edərək əhalini hədələyir, Ermənistan hökumətinə tabe olmağa çağırışlar edirdi. Erməni hökumətinə tabe olmayanlar qəzanı tərk etməli, ya da Andranikin amansız cinayətlərinin qurbanları olmalı idilər. 1918-ci ildə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımın araşdırılması ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də Fövqaladə Təhqiqat Komissiyası yaradılmışdır. Bu qurum vasitəsilə baş vermiş qırğınlar araşdırılmış, şahid ifadələri və istintaqa cəlb edilənlərdən əldə edilən məlumatlar bir daha erməni-bolşevik qüvvələrinin məqsədli şəkildə soyqırım törətdiyini təsdiq edir. Bu qurum tərəfindən araşdırılmış təhqiqat materiallarının 36 cildindən ikisi məhz Zəngəzurda baş verən hadisələrə aiddir. Fövqaladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Zəngəzur qəzasının 115 kəndi ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir. Həmin kəndlərin adları bu sənədlərdə qeyd edilmişdir. 115 kənddən 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürüldüyü göstərilmişdir. Bundan başqa, qeyd etmək lazımdır ki, Fövqaladə Təhqiqat Komissiyasının məruzəsi hazırlanaa qədər 10068 nəfər azərbaycanlının ermənilər tərəfindən qətlə yetirildiyi, ağır xəsarətlər nəticəsində şikəst edilmişdir. 1918-ci ilin əvvəlindən İrəvan quberniyasında azərbaycanlılara qarşı erməni silahlı dəstələri kütləvi qırğınlar törətməyə başlamışdılar. 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Yeni-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kənd olmaqla, 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər azərbaycanlını soyqırımına məruz qoymuşdular. 1919-cu ilin sentyabrına kimi Zəngibasarın bəzi kəndəri istisna olmaqla, İrəvan qəzasının, eyni zamanda da, Vedibasarın bütün kəndləri dağıdılaraq məhv edilmiş, əhalisi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdlarından bu yolla çıxarılmışdır. 1920-ci ildə "Azərbaycan" qəzetinin aprel ayında dərc edilmiş nömrəsində bununla bağlı məlumat verilmişdi. 1918-1920-ci illərdə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlar Almaniya, Böyük Britaniya, Osmanlı, Rusiya arxivlərində saxlanılan materiallarda öz əksini tapmışdır. Bunlar bir daha bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu, ermənilər tərəfindən xalqımıza qarşı etnik təmizləmə siyasəti aparıldığını bir daha sübut edir.

İrəvan əyalətinin dəftərləri hesab edilən tarixi mənbələr Osmanlı dövrünə aid olan

sənədlərdir. “İrəvan əyalətinin icmal dəftəri” və “İrəvan əyalətinin müfəssəl dəftəri” adlı bu mənbələr, məlum olur ki, Səfəvi dövləti ilə Osmanlı dövləti hegemonluq uğrunda mübarizə aparmışlar. Səfəvi-Osmanlı müharibələri nəticəsində İrəvan bir müddət Osmanlı nəzarətində qalmışdır ki, XVI əsrin sonu-XVIII əsrə aid İrəvan əyalətinin tarixini öyrənmək üçün ən mühüm sənədlər hesab olunur. Azərbaycanın tarixi torpağı olan, hazırda Ermənistan Respublikasının ərazisi hesab edilən bu torpaqlar bir müddət Osmanlı imperiyasından asılı hala düşmüşdür. Tarixə nəzər saldıqda buranın idarəsi zamanı qeydə alınan məlumatlar bəhs olunan “Dəftərlər”də toplanmışdır. Bu tarixi mənbələrdə qeyd olunan faktlar mühüm məlumatlardır, onların təhlili və verilən məlumatlar tarixi gerçəkliyi əks etdirir. İrəvan əyalətinin sərhədləri, əhalisi, abidələri, həmçinin, bəhs olunan dövrdə buradakı ictimai-siyasi vəziyyət və digər məsələlərlə bağlı məlumatları bu “Dəftərlər”dən öyrənmək mümkündür. Bu “dəftərlər” İstanbuldakı Baş Nazirlik Osmanlı Arxivində saxlanılır. İrəvan əyalətinin dəftərləri hesab edilən tarixi mənbələr Osmanlı dövrünə aid olan sənədlərdir. “İrəvan əyalətinin icmal dəftəri” və “İrəvan əyalətinin müfəssəl dəftəri” adlı bu mənbələr, məlum olur ki, Səfəvi dövləti ilə Osmanlı dövləti hegemonluq uğrunda mübarizə aparmışlar. Səfəvi-Osmanlı müharibələri nəticəsində İrəvan bir müddət Osmanlı nəzarətində qalmışdır ki, XVI əsrin sonu-XVIII əsrə aid İrəvan əyalətinin tarixini öyrənmək üçün ən mühüm sənədlər hesab olunur. Azərbaycanın tarixi torpağı olan, hazırda Ermənistan Respublikasının ərazisi hesab edilən bu torpaqlar bir müddət Osmanlı imperiyasından asılı hala düşmüşdür. Tarixə nəzər saldıqdaburanın idarəsi zamanı qeydə alınan məlumatlar bəhs olunan “Dəftərlər”də toplannmışdır. Bu tarixi mmənbələrdə qeyd olunan faktlar mühüm məlumatlardır, onların təhlili və verilən məlumatlar tarixi gerçəkliyi əks etdirir. İrəvan əyalətinin sərhədləri, əhalisi, abidələri, həmçinin, bəhs olunan dövrdə buradakı ictimai-siyasi vəziyyət və digər məsələlərlə bağlı məlumatları bu “Dəftərlər”dən öyrənmək mümkündür. Bu “dəftərlər” İstanbuldakı Baş Nazirlik Osmanlı Arxivində saxlanılır. Osmanlı mənbələrinə daxil edilən bu tarixi qaynaqlar 1590, 1593/1595 və 1728-ci illərə aiddir. Tarixdən məlumdur ki, Səfəvi-Osmanlı müharibələrinin yekununda 1590-cı ildə İstanbul sülh müqaviləsi imzalanmışdır. Sülhün şərtlərinə görə, müharibədə üstünlük qazanan Osmanlı dövləti Səfəvilərə məxsus bəzi ərazilərə sahib oldu. Bu ərazilərə İrəvan və ətraf ərazilər də aid idi. Sözsüz ki, burada Osmanlı qanunları hakim olmağa başladı, buranı iatətdə saxlamaq üçün Osmanlı qüvvələri qalalarda yerləşdirildi. Bundan sonra, əhalidən alınan vergilər də müvafiq olaraq Osmanlı xəzinəsinə gedirdi. Bu ərazilərin idarə edilməsi ilə bağlı bir sıra məlumatlar Osmanlı məmurlarının apardığı qeydlərdə toplanırdı. Həmin qeydlər “icmal dəfətri”, “müfəssəl dəftəri” olan bu gün tarixi qaynaq rolunu oynayan dəftərlərdir. 1590-cı ildən əhalinin siyahıyalınmasına başlandı və buradakı sosial-iqtisadi vəziyyətlə bağlı sənəd tərtib edildi. Bu sənəd “İrəvan əyalətinin müfəssəl dəftəri” adlanır.

Azərbaycan əraziləri Osmanlı dövlətinin nəzarətinə keçdikdən sonra bu ərazilərdə vəziyyəti öyrənməyə başladılar. “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə ərazilər üzrə kəndlərin siyahısı, bu kəndlərin hər birindən əldə olunan verginin miqdarı qeyd edilmişdir. Tədqiqatçıların fikrinə görə, siyahıda qeyd olunan kəndlərdə mövcud olan yaylaq, qışlaq kimi ərazilər konkret olaraq göstərilməyib. Bu da bir qədər informasiyanın təhlilində çaşqınlıq yarada bilər. Bundan başqa, vilayəin ayrı-ayrı inzibati bölgülərinin dəftərin fərqli yerlərində müxtəlif adlandırılmasına təsadüf edilir. Bütün bunların bu dəftərin 1590-cı il İstanbul

sülhünün ardınca tələsik hazırlandığından xəbər verir. Belə ki, buranı nəzarətə götürən Osmanlı dövləti bölgəni tədqiq etmək üçün nümayəndələrini göndərmişdir. Məqsəd ərazinin inzibati quruluşu, Səfəvilərdən qalan vergi münasibətlərini, əhalinin iqtisadi-sosial vəziyyətini müəyyən etmək və ona uyğun müəyyən addımlar atmaq idi. Belə ki, vergilərin ənənəvi toplanma qaydası haqqında ətraflı məlumat öyrənib, Osmanlı qayda-qanunlarına uyğunlaşdırmağa çalışırdılar. Bildiyimiz kimi, dövlət xəzinəsinin əsasını vergilər təşkil edir ki, Osmanlı dövlətini da əsas maraqlandıran sahələrdən biri bu idi. Məhz İrəvan əyalətinin dəftərləri də bununla bağlı tərtib edilmişdir. Vergi ödəyən əhalinin sayını, iqtisadi potensialını öyrənmək, ona uyğun addım atmaq lazım gəlirdi. Səfəvi dövlətinin inzibati ərazi baxımndan Çuxursəd bəylərbəyi olan bu ərazilər Osmanlı sənədlərində Rəvan (İrəvan) əyaləti olaraq qeyd edilmişdir.

Azərbaycan əraziləri Osmanlı dövlətinin nəzarətinə keçdikdən sonra bu ərazilərdə vəziyyəti öyrənməyə başladılar. “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə ərazilər üzrə kəndlərin siyahısı, bu kəndlərin hər birindən əldə olunan verginin miqdarı qeyd edilmişdir. Tədqiqatçıların fikrinə görə, siyahıda qeyd olunan kəndlərdə mövcud olan yaylaq, qışlaq kimi ərazilər konkret olaraq göstərilməyib. Bu da bir qədər informasiyanın təhlilində çaşqınlıq yarada bilər. Bundan başqa, vilayəin ayrı-ayrı inzibati bölgülərinin dəftərin fərqli yerlərində müxtəlif adlandırılmasına təsadüf edilir. Bütün bunların bu dəftərin 1590-cı il İstanbul
sülhünün ardınca tələsik hazırlandığından xəbər verir. Belə ki, buranı nəzarətə götürən Osmanlı dövləti bölgəni tədqiq etmək üçün nümayəndələrini göndərmişdir. Məqsəd ərazinin inzibati quruluşu, Səfəvilərdən qalan vergi münasibətlərini, əhalinin iqtisadi-sosial vəziyyətini müəyyən etmək və ona uyğun müəyyən addımlar atmaq idi. Belə ki, vergilərin ənənəvi toplanma qaydası haqqında ətraflı məlumat öyrənib, Osmanlı qayda-qanunlarına uyğunlaşdırmağa çalışırdılar. Bildiyimiz kimi, dövlət xəzinəsinin əsasını vergilər təşkil edir ki, Osmanlı dövlətini da əsas maraqlandıran sahələrdən biri bu idi. Məhz İrəvan əyalətinin dəftərləri də bununla bağlı tərtib edilmişdir. Vergi ödəyən əhalinin sayını, iqtisadi potensialını öyrənmək, ona uyğun addım atmaq lazım gəlirdi. Səfəvi dövlətinin inzibati ərazi baxımndan Çuxursəd bəylərbəyi olan bu ərazilər Osmanlı sənədlərində Rəvan (İrəvan) əyaləti olaraq qeyd edilmişdir.

“Müfəssəl dəftər”də həmçinin, Osmanlı dövlətinin verdiyi qanunnamə də yer almışdır. Bu qanunnamə Allaha sonsuz təşəkkürlərlə, İslam peyğəmbərinə minnəətlə başlayır və Osmanlı sultanı Muradın və Fərhad paşanın Azərbaycan ərazilərini ələ keçirməsi mübaliğələrlə təsvir edilmişdir. Burada göstərilir ki, Şirvan vilayəti, Gürcüstan, Rəvan və Naxçıvan vilayətləri daxil olmaqla, Azərbaycanın çox hissəsi ələ keçirilmişdir. Sənəddə diqqət cəlb edən məqam Rəvan və Naxçıvanın gözəlliyinin vəsf edilməsidir. Naxçıvan və İrəvan (Osmanlı mənbələri Rəvan adlandırır) Quranın Fəcr surəsinin 8-ci ayəsinin sözləri ilə təsvir edilir: “halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi”. Burada göstərilir ki, fəth olunduqdan sonra belə gözəlliyə və əhəmiyyətə malik olan ərazilərin qorunması Osmanlı dövləti üçün vacibdir. “Dəftərlər”də inzibati bölgü barədə də məlumat verilmişdir. Rəvan əyalətinin inzibati bölgüsünə əsasən, buradakı nahiyələr, onların adları, əhalisi bir daha Azərbaycan xalqının tarixi torpaqları olmasını sübuta yetirir. Ərazi adlarından bu aydın göründüyü üçün ermənilər tarixi ərazilərimi ələ keçirəndən sonra toponomik dəyişikliklər etmiş, tarixi-coğrafi adları özününküləşdirməyə çalışmışdır.

| | |
|---|---|
| | |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>90% |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>İl ərzində layihənin icrası zamanı əldə edilmişdir:<br>- Qərbi Azərbaycan həqiqətlərini özündə əks etdirən mənbələr, tarixşünaslıqda yer tutan əsərlərdə mənbələrdəki faktlara olan yanaşmaların təhlili göstərir ki, indiki Ermənistan ərazisi hesab edilən ərazi tarixi Azərbaycan torpaqlarıdır və Azərbaycan xalqı zorla və məqsədli şəkildə bu ərazilərdən çıxarılmışdır.<br>- 1918-1920-ci illərdə Qərbi Azərbaycanda – İrəvan və Zəngəzur ətrafında ermənilər tərəfindən həyata keçirilmiş soyqırımlar təhlil edilmişdir. Qeyd edək ki, Bu soyqırımları sübut edən qiymətli sənədlər bu gün Azərbaycan Respublikası Milli Arxiv idarəsində qorunan Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində, Türkiyə Cumhuriyyətinin “Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi”, “Başbakanlık Osmanlı Arşivi” və Almaniya Federativ Respublikasının Berlin şəhərindəki “Almaniya Xarici İşlər Nazirliyinin Siyasi arxivi”nin (Politischen Archiv den Auswätrigen) Birinci Dünya Harbi (BDH) və İstiklal Savaş Harbi (İSH) fondlarında qorunub saxlanılır. Həmin arxiv sənədlərindəki faktiki materiallar sübut edir ki, 1918-1920-ci illərdə ermənilər Azərbaycanın bir çox ərazilərində, o cümlədən də, Qərbi Azərbaycan qəzasında on minlərlə dinc, silahsız türk-müsəlman əhalini etnik mənsubiyyətinə görə amansızcasına qətlə yetirmişdir.<br>- Qərbi Azərbaycan ərazisində mövcud olan abidələr, əldə edilmiş arxeoloji materiallar da tarixi həqiqətləri özündə əks etdirir. Bu abidələrin tarixi, etimoloji xüsusiyyətləri, yerləşdiyi ərazinin toponomikası kimi xüsusiyyətlər bunu aydın göstərir. Tarixi abidələr üzərində əks olunmuş təsvirlər, yazılardan da bu abidələrin Azərbaycan xalqına məxsus olması aydın görünür. Bundan başqa, müxtəlif yazılı mənbələrdə - Avropalı səyyahların gündəliklərində, tarixi sənədlərdə, çar Rusiyasına aid rəsmi statistik məcmuələrdə də bu abidələr barədə müəyyən məlumatlar əks olunmuşdur. Həm maddi-mədəniyyət nümunələri, həm də onların təsvir edildiyi yazılı mənbələrdəki məlumatlar kompleks şəkildə təhlil olunan zaman tarixi gerçəklik aydın olur. əldə edilən nəticə göstərir ki, Qərbi Azərbaycanda yerləşən maddi-mədəniyyət nümunələrinin müəllifi Azərbaycan xalqıdır. Bu abidələrin mühüm bir hissəsi məhv edilmiş, müxtəlif dəyişikliklərə məruz qalmışdır. Lakin bu mənbələr və yazılı qaynaqlar Qərbi Azərbaycan ərazisinin Azərbaycan xalqının tarixi torpaqları olduğunu sübut edir.<br>- Tarixi mənbələrdən olan “İrəvan əyalətinin müfəssəl dəftəri”, “İrəvan əyalətinin icmal dəftəri”, “İrəvan əyalətinin sivil dəftəri” XVI-XVIII əsrlərdə mövcud ictimai-iqtisadi vəziyyəti əks etdirir. Bu dəftərlər Osmanlı dövründə Rəvan vilayətinin inzibati bölgüsü, demoqrafiyası, toponimikası, şəhər həyatı və digər ictimai-iqtisadi həyatını aydınlaşdıran mənbələrdir. Bu “Dəftərlər”də göstərilən faktlar bir daha erməni |

| | |
|---|---|
| | yalanlarını ifşa edir. |
| 4 | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusunun araşdırılması zamanı keyfiyyət tədqiqat metodundan, sənəd təhlilindən istifadə edilmişdir. İlk növbədə mövzu ilə bağlı bu vaxta kimi yazılmış monoqrafiyalar, məqalələrə müraciət edilmişdir. Eyni zamanda, ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. |
| 5 | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə İsmayılova Aygün və icraçı Abbasova Sevincin həmmüəllif olduğu "Genocide carried out in Western Azerbaijan in 1918-1920" adlı məqalə "Slovak international scientific journal"ın №84 sayında (səh.47-51) çap edilmişdir. Məqalənin yerləşdiyi jurnalın linki: https://sis-journal.com/wp-content/uploads/2024/06/Slovak-international-scientific-journal-%E2%84%9684-2024.pdf<br>İsmayılova Aygün və Abbasova Sevincin həmmüəllif olduğu "Material-cultural samples of Western Azerbaijan as a historical source" və İsmayılova Aygün, Abbasova Sevanə və Lalə Məmmədovanın həmmüəllif olduğu "Ottoman perıod tax und land survey registers - "The tahrir-defterleri of the Revan provınce" as historical source adlı məqalə çapa göndərilmişdir. |
| 6 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>- |
| 7 | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>- |
| 8 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| 9 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Sosial Tədqiqatlar Mərkəzinin 29.12.2023-cü il tarixində təşkil etdiyi "Qərbi Azərbaycan yolunda" adlı konfransda Stalin dövründə həyata keçirilmiş deportasiyalar və Qərbi Azərbaycan həqiqətlərinin araşdırılması, tədbirlərin sistemli təşkili ilə bağlı çıxış etmişəm. 17.10.2024-cü ildə Azərbaycan Dillər Universitetində Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsində keçirilmiş "Qarabağ və Zəngəzurun yaşıl enerji zonası kimi inkişafı"adlı dəyirmi masada layihə icraçısı Abbasova Sevinc "Zəngəzur yaşıl enerji zonası kimi" mövzusunda çıxış etmişdir. |
| 11 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>- |
| 12 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | Layihənin icrası zamanı tarix elmləri doktoru Anar İsgəndərli, tarix üzrə fəlsəfə doktoru Samir İsmayılov, tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova, tarix üzrə fəlsəfə doktoru Jalə İsmayılova ilə əlaqə saxlanılmış, mənbələrin əldə edilməsi, təhlili ilə bağlı müzakirə və məsləhətləşmələr aparılmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>- |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>- |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>- |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)* |

**Layihə rəhbərinin imzası ___________________ İsmayılova Aygün Vilayət qızı**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.